BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2015

UOT 93/99:947.1.9 (479.24-20)

# BAKI NEFT SƏNAYEÇİLƏRİ QURULTAYININ BAKI SƏNAYE RAYONUNUN SANİTARİYA SAHƏSİNDƏ FƏALİYYƏTİNƏ DAİR (1900-1905-ci illər)

**P.R.XƏLİLOV**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***polad-xalilov@mail.ru***

*Məqalədə Şimali Azərbaycanın neft sənayesində kapitalist münasibətlərinin tam surətdə bərqərar olması dövründə Bakı Neft Sənayeçiləri Qurultayının Bakı sənaye rayonunun sanitariya sahəsindəki fəaliyyətindən bəhs olunur. Məqalənin ümumi məzmunundan aydın olur ki, neft sənayeçiləri qurultayının mədən-zavod rayonunda təsərrüfatın digər sahələrinə nisbətən antisanitariya şəraitinin aradan qaldırılması istiqamətində həyata keçirdiyi tədbirləri yalnız qısa zaman kəsiyini əhatə etmiş və daha çox nəzəri xarakter daşımışdır. Eyni zamanda, neft sənayesi sahibkarları öz müəssisələrində sanitar qaydalarına riayət olunmasına tələb olunan səviyyədə diqqət göstərməmişdilər.*

**Açar sözlər:** sanitariya, tədbir, həkim, qurultay, mədən

XX əsrin əvvəlində Bakıda neft bumunun özünün pik nöqtəsinə çatdığı bir dövrdə əsas etibarilə neft işi ilə məşğul olan Bakı Neft Sənayeçiləri Qurultayı mədən-zavod rayonunun təsərrüfat sahəsinə də diqqət ayırmış, antisanitariya şəraitinin aradan qaldırılması istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir. Lakin neft sənayeçiləri qurultayında təmsil olunan neft sənayesi sahibkarlarının daha çox maddi gəlir əldə etmək iddialarında olmaları Qurultayın bu sahədəki fəaliyyətinə mənfi təsir göstərmiş, onun müxtəlif hökumət orqanlarının təşkil etdiyi iclaslarında yalnız müşahidəçi qismində fəaliyyəti ilə məhdudlaşmışdır.

1884-cü ildə təsis olunan Bakı Neft Sənayeçiləri Qurultayı özünün mövcud olduğu ilk illərdə daha çox müvəkkillik fəaliyyəti ilə məşğul olurdu. 1893-cü ildə neft rüsumunun tətbiq olunmasından sonra Qurultay mədən-zavod rayonunun təsərrüfat sahəsində də fəaliyyət göstərməyə başlamış, fəhlələrin və onların uşaqlarının sağlamlığının mühafizə olunması, ibtidai təhsilə yiyələnmələri, mədənlərin işıqlandırılması və abadlaşdırılması, mədən-zavod rayonun-

da antisanitariya şəraitinin aradan qaldırılması istiqamətində də vacib tədbirlər həyata keçirmişdir. XIX əsrin sonunda olduğu kimi, XX əsrin əvvəlində də Qurultay tərəfindən antisanitariya şəraitinə qarşı aparılan mübarizə tədbirləri dar çərçivədə yerinə yetirilmişdi.

1900-cü ildə də Balaxanı-Sabunçu-Ramana mədənlərinə nəzarət olunması işi Qurultayın xüsusi sanitar həkiminin sərəncamında idi. Ərazisi çox da böyük olmayan Bibiheybət və Ağşəhər rayonlarını nəzarətdə saxlamaq işi isə Qurultayın ambulator həkimlərinə həvalə olunmuşdu. Qonşu ölkələrdən epidemiyanın daxil olması təhlükəsi ilə əlaqədar olaraq 1900-cü ildə Balaxanı-Sabunçu-Ramana mədənlərinə əlavə həkimin və sanitar nəzarətcilərin təyin olunması ilə sanitariya işi gücləndirildi [1, 24].

Həkim Abulovun məlumatlarına görə, 1899-1902-ci illərdə Balaxanı-Sabunçu-Ramana mədən rayonu qarın yatalağı xəstəliyinin endemik olaraq peyda olduğu ərazi olmuşdur. Bu xəstəliyin peyda olmasına təsir göstərən amillər arasında fəhlə əhalisinin sıx şəkildə və ağır şəraitdə yaşaması şəraitini, mədənlərdə içməli suyun olmamasını (yalnız 1902-ci ildə Zuğulba su kəməri çəkilmişdir) və torpaq qatlarının ifrat dərəcədə çirklənməsini göstərmək olar [2, 1148]. Həkim Abulov belə bir faktın da üstündən sükutla keçmirdi ki, 1901-ci ilə nisbətən 1902-ci ildə qarın yatalağı xəstələrinin sayı demək olar ki, iki dəfə azalmışdı. Buna təsir göstərən amillər arasında yüksək miqdarda yağıntının olmasına görə, torpaqaltı suyun keyfiyyətinin qənaətbəxş vəziyyətdə olmasını, mədənlərə döşənmiş yolların çəkilməsini, küçələrin suvarılmasını, yeni kazarmaların tikilməsini və sairəni göstərmək olar. Lakin ən mühüm tədbir Zuğulba su kəmərinin çəkilməsi işinin həyata keçirilməsi olmuşdur [2, 1149, 1151].

1901-ci il yanvarın 1-dən etibarən neft sənayeçiləri qurultayının sərəncamında olan sanitariya nəzarəti aşağıdakı kimi təşkil olunmuşdu: Balaxanı-Sabunçu-Ramana mədənlərində 6 nəzarətçi və 1 baytar feldşeiri, Bibiheybət və Ağşəhər rayonlarının hər birində 1 sanitar nəzarətçi fəaliyyət göstərirdi. Bibiheybət və Ağşəhər rayonlarında fəaliyyət göstərən nəzarətçilər yerli ambulator həkimlərinin sərəncamında idilər [1, 24]. Sanitar nəzarətçilərin hər biri öz sərəncamlarına daxil olan ərazilərdə hər hansı bir sanitar-gigiyena qaydalarının pozulması barədə məlumat toplayırdılar. Əgər 1899-1900-cü illər ərzində sanitar qaydalarının pozulması barədə 250 protokol tərtib olunmuşdusa, 1901-ci ildə onların sayı 30-a qədər azalmışdı. Sanitar həkimə eyni zamanda, polis həkiminin də vəzifələri həvalə olunduğundan, o, öz üzərinə düşən məsuliyyəti yerinə yetirməkdən yayınırdı. 1902-ci ilin sonunda Balaxanı rayonunun sanitariya nəzarəti işi və sanitariya vəziyyəti olduqca acınacaqlı halda idi. Yaşayış binalarında sağlam adamlarla yanaşı, xəstələrin, bəzi hallarda isə yoluxucu xəstəliyə məruz qalmış şəxslərin məskunlaşmaları, küçələrin çirkli, kazarmaların qaranlıq vəziyyətdə olması halları müşahidə olunurdu. İçki və yeyinti məhsullarının satışına nəzarət sistemi demək olar ki, yox dərəcəsində idi. Sallaqxanaların olmaması şəraitində heyvanların kəsilməsi işi ət dükanlarının qarşısındakı çirkli küçələrdə yerinə yetirilirdi. Həmin yerlərdə baytar həkimi

fəaliyyət göstərsə də, heyvanların kəsilməsi işinə ilikin olaraq nəzarət olunması sistemi yox idi [3, 93-94].

Neft sənayeçilərinin 1900-cü ilin dekabr ayında keçirilən XV fövqəladə qurultayına qurultay Şurasının nəzdində təsis olunacağı nəzərdə tutulan tibb-sanitar Şurasının təlimat layihəsi təqdim olundu. Təlimat layihəsinə görə, tibb-sanitar Şurasının vəzifələrinə tibb-sanitar işinə aid olan bütün səlahiyyətlər daxil idi. Bura qurultay Şurası tərəfindən təklif olunmuş şəxslərin həkim vəzifəsinə namizəd kimi təqdim olunması, həkimlərin şəxsi heyətində kadr dəyişikliklərinin edilməsi, qidalanma məsələləri və xəstələrin saxlanılması, tibbi qaydaları məsələləri, tibb-sanitar işinin yaxşılaşdırılması və genişləndirilməsi məqsədilə tədbirlərin işlənib hazırlanması, tibbi işinə və tibbi işinin təsərrüfat sahələrinə nəzarət olunması barədə hesabat formalarının işlənib hazırlanması, bütün tibb məntəqələrinin illik hesabatlarına baxılması, stasionar tibb müəssisələri üçün nəzərdə tutulan tikintilərin layihə və büdcə xərclərini yoxlamaq kimi vəzifələr daxil idi. Tibb-sanitar Şurasının daimi üzvləri aşağıdakı şəxslər ola bilərdilər: ayrı-ayrı tibb məntəqələrini idarə edən qurultay Şurasının həkimləri; tibb sahəsində müdir vəzifəsində çalışan qurultay Şurasının 2 nəfər üzvü; qurultay Şurası İşlər İdarəsinin müdiri və onun müavini; maliyyə-təftiş komissiyasının üzvlərindən biri [4, 98-99].

Qeyd edək ki, tibb-sanitar Şurasının iclaslarında mədən-zavod rayonunda fəaliyyət göstərən qəza sanitar-icraçı komissiyaların sədrləri də həqiqi üzvlər statusunda iştirak edə bilərdilər [4, 99]. Neft sənayeçilərinin XV qurultayı tərəfindən qurultay Şurasının nəzdində tibb-sanitar Şurasının təsis olunması barədə qərar qəbul olundu [4, 101] və 1901-ci ilin əvvəlində qüvvəyə mindi [5, 36].

Lakin tibb-sanitar Şurasının üzvlərindən heç biri tibbi işinin idarə olunması istiqamətində vəkil olunmadıqlarına görə, öz işlərinə görə məsuliyyət daşımırdılar. Buna görə də tibb-sanitar Şurasının fəaliyyəti icraçı orqan xarakterini deyil, hazırlıq və məşvərətçi orqanı xarakterini almağa başladı [3, 130].

Yuxarıda göstərilənlərə müvafiq olaraq neft sənayeçilərinin 1902-ci ilin dekabr ayında keçirilən XVII qurultayında qurultay Şurası tərəfindən tərkibi həkimlərdən, 1 nəfər qurultay Şurası üzvündən, 2 nəfər maliyyə-təftiş komissiyası üzvündən və qurultay Şurası İşlər İdarəsinin müdirindən ibarət olan xüsusi komissiyaya (mədən-zavod rayonunun sanitar münasibətləri baxımından abadlaşdırılması məsələsinin işlənib hazırlanması məqsədilə seçilən komissiya) tibb-sanitar müfəttişi vəzifəsinin təsis olunması məsələsinin işlənib hazırlanması işi həvalə olundu [6, 502]. Neft sənayeçilərinin 1905-ci ilin yanvar-fevral aylarında keçirilən XX qurultayında tibb-sanitar müfəttişinin təsis olunması məsələsi 1 nəfərə qarşı 8 nəfərin səs çoxluğu ilə öz təsdiqini tapdı. Göstərilən məsələnin qəti surətdə həll olunması isə həmin qurultayda növbəti ilin büdcə xərclərinə baxılması məsələsinə qədər təxirə salındı [7, 51-52]. Lakin bu məsələ növbəti ilin büdcə xərclərinə baxılması zamanı yenidən müzakirəyə qoyulsa da, qurultay üzvləri arasında yekdil fikir olmadığına görə qəbul olunmadı [8, 70].

Yuxarıda göstərilən məlumatları nəzərdən keçirdikdə belə bir fikir or-

taya çıxır ki, tibb-sanitar müfəttişi vəzifəsinin təsis olunması məsələsinin büdcə xərclərinə baxılması zamanı son anda qəbul olunmaması neft sənayeçilərinin öz büdcələrinə qənaət etməsi amilindən irəli gəlirdi. Belə bir vəziyyət tibb-sanitar işinin sistemli şəkildə deyil, pərakəndə halda təşkil olunmasına gətirib çıxarırdı ki, bu səbəbdən də antisanitariya şəraitinə qarşı aparılan mübarizə tədbirlərində heç bir irəliləyiş nəzərə çarpmırdı.

1904-cü ilin ikinci yarısında Bakı şəhəri və onun ətraf rayonlarına vəba xəstəliyinin yaxınlaşması təhlükəsinə qarşı mübarizə aparılması məqsədilə Qurultayın tibb-sanitar müəssissələrində canlanma müşahidə olunmağa başladı. Mədən-zavod rayonunu vəba xəstəliyinin yaranması halından qorumaq mümkün olmasa da, bu amil qurultay Şurası orqanlarının fəaliyyəti ilə bağlı deyildi. Ona görə ki, vəba xəstəliyinin meydana gəlməsi prosesi Bakı şəhərinə nisbətən mədənlərdə gec baş vermişdi və fərqli olaraq az inkişaf etmişdi. Qurultay Şurası vəba xəstəliyinə qarşı mübarizə aparılması məqsədilə bəzi səriştəli şəxsləri bu işə dəvət edib, onlarla birlikdə epidemiyaya qarşı mübarizə proqramını işləyib hazırladı və bu proqram tibb-sanitar Şurasının üzvləri ilə birlikdə müzakirəyə çıxarıldı. Tibb-sanitar Şurası qurultay Şurasının təşkil etdiyi bu tədbiri təqdirəlayiq hal kimi qiymətlənirdi. Lakin tibb-sanitar Şurasının vəba epidemiyasına qarşı mübarizədəki fəaliyyəti onun yalnız 1 iclasda iştirak etməsi ilə məhdudlaşdı [8, 26-27].

Qurultay Şurasının 1904-cü il üzrə təqdim etdiyi hesabatında Ağşəhər rayonunun sanitariya vəziyyəti qənaətbəxş vəziyyətdə göstərilsə də [8, 35], əslində bu belə deyildi. Ağşəhərdə xüsusi zibil məntəqəsi olmadığına görə, peyinlər, zir-zibillər və digər tullantılar sistemsiz şəkildə daşınırdı. Heyvanların kəsilməsinə nəzarət olunması işi isə (baytarlıq nəzarəti) tamamilə istisna hal təşkil edirdi. Buna görə də gündəlik olaraq gizli surətdə, çoxlu sayda xırda və iri heyvanların kəsilməsi halları baş verirdi. Evlərin əksəriyyətində çirkab quyusu və zibil qutusu yox idi. Zibil qutusu olan evlərdə isə onlar dözülməz antisanitariya şəraitində və dolu vəziyyətdə saxlanılırdı. Bundan başqa, əhalinin içməli su kimi istifadə etdiyi Keşlə quyuları dəhşətli antisanitariya şəraitində və açıq vəziyyətdə idi. Qurultay Şurasının sanitar işçiləri tərəfindən Ağşəhər körpüsü suvarılmadığına görə, bütün natəmizliklər yerli sakinlərin pəncərələrinə və qapılarına yayılırdı. Yollar boyunca yerləşən ticarət müəssisələrindəki bütün çirkablar və natəmizliklər əhalinin gözü qarşısında birbaşa küçəyə atılırdı [9].

Qurultay Şurası Balaxanı tibb-sanitar komissiyasının üzvləri tərəfindən mədən rayonundakı fəhlə kazarmalarının və digər yaşayış evlərinin yoxlanılması zamanı məlum olmuşdur ki, onların yalnız 1/10-i sanitar-gigiyena qaydalarına uyğundur. Əksəriyyəti isə sanitar-gigiyena qaydalarına tamamilə cavab vermirdi. Bir çox yerlərdə zibil qutularının, hamamların və kanalların olmaması halına da rast gəlinirdi [10].

Ağşəhər rayonunda yerləşən iri zavodların sahibkarları külli miqdarda vəsaitə malik olsalar da, onların da müəssisələri sanitar-gigiyena qaydalarına cavab vermirdi. “S.M.Şibayev və K$^0$” firmasının zavodu dəhşətli antisanitariya

şəraitində aşkar olunmuşdu. Həmin zavodun kazarmaları öz darısqallığı və natəmizliyi ilə seçilirdi. Fəhlələr üçün ayrıca yeməkxana yox idi və içməli su açıq yerlərdə saxlanılırdı [11].

1905-ci ildə Balaxanı-Sabunçu-Ramana mədənlərində və Bibiheybət rayonunda Qurultay Şurasının sanitariya nəzarəti 2 sanitar həkimin, Ağşəhərdə isə ambulator həkimlərin sərəncamında olmuşdur. Sanitar nəzarətçilərin sayı Balaxanı-Sabunçu-Ramana mədənlərində 3, Bibiheybət və Ağşəhər rayonlarının hər birində isə 1 nəfərdən ibarət idi [12, 29]. 1904-cü ildə başlayan vəba epidemiyasına qarşı mübarizə tədbirləri 1905-ci ildə də davam etdirilmişdi. 1905-ci ilin avqustunda baş vermiş azərbaycanlı-erməni toqquşmaları ilə əlaqədar olaraq sanitar nəzarətçilərin fəaliyyəti dayanmış və ilin sonuna qədər bərpa olunmamışdır [12, 30]. Ümumiyyətlə, avqust hadisələri ilə bağlı olaraq bütün mədən meydanında hökm sürən dəhşətli antisanitariya şəraiti yerli əhali arasında müxtəlif yoluxucu xəstəliklərin yayılmasına səbəb olmuşdur [13]. Mədən rayonu fəhlələrinin yeməklə təmin olunması məqsədilə Bibiheybət şossesindəki mədənlərin qarşısında, çirkli vəziyyətdə olan daxmacıqlarda bir neçə kiçik aşxana fəaliyyət göstərirdi ki, onlar da dəhşətli antisanitariya şəraitində idi. Oradakı yeməklər ət piştaxtalarından və sallaqxanalarından atılan ət tullantılarından hazırlanırdı. Fəhlələr tərəfindən edilən şikayətlər isə heç bir nəticə vermirdi [14].

Beləliklə, Bakı Neft Sənayeçiləri Qurultayı tərəfindən Bakı sənaye rayonunun sanitariya sahəsinə laqeyd yanaşılmanın səbəbini onun bu sahəyə heç bir marağının olmaması kimi amillə də əlaqələndirmək olar. Bəhs olunan dövrdə fəhlə tətillərindəki irəli sürülən tələblər əsasən istehsalat sahəsindəki iş ilə bağlı olduğuna görə, mədən-zavod rayonunun sanitariya vəziyyəti bu baxımdan arxa plana keçir və Qurultayda təmsil olunan neft sənaye sahibkarları bu məsələdə fəhlələrin təzyiqi ilə elə də ciddi şəkildə üzləşmirdilər. Lakin bir məsələni də vurğulamaq lazımdır ki, antisanitariya hallarına qarşı aparılan mübarizə tədbirləri əslində Qurultayın vəzəfələrinə və funksiyalarına daxil deyildi və o, bu işə könüllülük prinsipi əsasında vaxt ayırırdı.

**ƏDƏBİYYAT**


1. Хозяйственная деятельность Совета // Отчет о деятельности Совета, XVI-ому очередному съезду нефтепромышленников. Отдел I и II. Баку: Типография 1-го Типографского Т-во, 1901, с.1-40.
2. Абулов С. О ходе брюшно-тифозных эндемий за 1899-1902 гг. в Балахано-Сабунчино-Раманинском промысловом районе (по данным Балаханской больницы съезда нефтепромышленников) // «Нефтяное дело», 1903, 7 октября, №18, с.1148-1151.
3. Труды XVII-го очередного съезда нефтепромышленников в гор. Баку (с 2-го по 23-е декабря 1902 года). Том II. Баку: Типография 1-го Типографского Товарищество, 1903, 269 с.
4. Труды пятнадцатого экстренного съезда нефтепромышленников в г.Баку (с 11-го по 23-е декабря 1900 года). Баку: Типография А.Г.Юзбашева, 1901, 340 с.
5. Труды XVIII-го очередного съезда нефтепромышленников в гор. Баку (с 5-го по 22-е декабря 1903 года). Том II. Баку: Типография 1-го Типографского Товарищество, 1904, 400 с.

6. Труды XVII-го очередного съезда нефтепромышленников в гор. Баку (с 2-го декабря 1902 г. по 23-е декабря 1902 г.). Том I. Баку: Типография А.К.Касабова, 1903, 537 с.
7. Труды XX-го очередного съезда нефтепромышленников в гор. Баку (с 31-го января по 13-е февраля 1905 года). Том I. Баку: Типография А.К.Касабова, 1906, 141с.
8. Труды XX-го очередного съезда нефтепромышленников в гор. Баку (с 31-го января по 13-е февраля 1905 года). Том II. Баку: Типография 1-го Типографского Товарищество,1905, 525 с.
9. Правдин. Санитарное состояние Белого городка // «Каспий», 1904, 4 июля, №150.
10. «Каспий», 1904, 10 июля, №155.
11. Санитарное состояние крупных заводов Белого городка // «Каспий», 1904, 4 августа, №175.
12. Отчет о деятельности Совета съезда XXIII-му очередному съезду нефтепромышленников. Отдел II. Хозяйственная деятельность Совета. Баку: Типография Первого Типографского Товарищество, 1906, 85 с.
13. «Каспий», 1905, 14 сентября, №178.
14. «Каспий», 1906, 24 марта, №67.

## ДЕЯТЕЛЬНОСТЬ В ОБЛАСТИ САНИТАРИИ СЪЕЗДА БАКИНСКИХ НЕФТЕПРОМЫШЛЕННИКОВ В БАКИНСКОМ ПРОМЫШЛЕННОМ РАЙОНЕ (1900-1905 гг.)

**П.Р.ХАЛИЛОВ**

### РЕЗЮМЕ

В статье нашло отражение деятельность Съезда Бакинских Нефтепромышленников в области санитарии Бакинского промышленного района в период полного установления капиталистических отношений в нефтяной промышленности Северного Азербайджана. Из общего содержания статьи становится очевидным, что, по сравнению с другими хозяйственными сферами деятельности съезда нефтепромышленников мероприятии претворяемые в жизнь в области ликвидации антисанитарийных условий в промыслово-заводском районе занимали небольшой промежуток времени и носили больше теоретический характер. В то же время, нефтяные предприниматели не уделяли должного внимания соблюдению санитарных норм на своих предприятиях.

**Ключевые слова:** санитария, мероприятие, врач, съезд, промысел

## ABOUT THE ACTIVITIES OF BAKU OIL INDUSTRIALISTS CONGRESS IN THE SANITATION OF BAKU INDUSTRIAL REGION (1900-1905)

**P.R.KHALILOV**

### SUMMARY

The article is dedicated to the activities of Baku Oil Industrialists' Congress in the Sanitation of Baku Industrial Region.

**Key words:** sanitation, measure, doctor, congress, mine